## Sosial siyasət

“Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin Sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.”

"Bilirsiniz ki, Neft Fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin Fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar".

***Andiçmə mərasimində nitqindən***
***(31 oktyabr 2003)***

***

"...mən sahibkarları dəstəkləyirəm, onlara öz siyasi dəstəyimi verirəm və bu məsələyə gələcəkdə çox böyük diqqət göstərəcəyəm. Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz".

***Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində nitqindən***
***(2 fevral 2004)***

***

"Azərbaycanda Prezident Heydər Əliyevin sərəncamı ilə yaradılmış Dövlət Neft Fondunun fəaliyyəti çox səmərəlidir. Bu Fondda yığılan vəsaitlər şəffaf şəkildə saxlanılır və Azərbaycanın ən ağır problemi olan qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına sərf edilir. Azərbaycanın iqtisadi-sosial problemlərinin həlli istiqamətində bu vəsaitlər ölkəmizə kömək edəcəkdir".

***Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə|***
***əlaqədar sənədlərin imzalanması mərasimində nitqindən***
***(3 fevral 2004)***

***

“Azərbaycan hökumətinin gündəliyindəki ən öncül məsələlərdən biri də sosial problemlərin həllidir. Biz bazar münasibətlərinə əsaslanan iqtisadiyyatımızla sosialyönümlü büdcə arasında çox gözəl vəhdət yaratmağa nail olmuşuq. Əgər büdcəmizə baxsanız, görərsiniz ki, onun 70-80 faizi məhz sosial problemlərin həllinə yönəldilmişdir.”

***“Daha geniş Avropaya doğru: yeni gündəlik”***
***mövzusunda beynəlxalq konfransda çıxışından***
***(19 mart 2004)***

***

"Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Amma büdcəmizin strukturuna nəzər salsanız, görərsiniz ki, büdcənin çox böyük hissəsi sosial məsələlərə yönəldilmişdir. Məncə, bazar iqtisadiyyatı ilə sosial müdafiənin bu cür kombinasiyası da uğurun əsaslarını təşkil edən amillərdəndir".

***AŞPA-nın yaz sessiyasındakı iclasında çıxışından***
***(30 aprel 2004)***

***

"...qəbul etdiyimiz proqramların əsas məqamlarından biri də məhz sosial məsələlərin həllidir. Ümid edirəm ki, Azərbaycan öz iqtisadi potensialını gücləndirdikcə bu məsələlər də öz həllini tapacaq, insanlarımız ildən-ilə daha yaxşı və firavan yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız - siyasi iradə, gözəl şərait, insanlarımızın peşəkarlığı və ən önəmlisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasəti vardır Bu siyasət bu gün də yaşayır, sabah da yaşayacaq və Azərbaycanın uğurlu, hərtərəfli inkişafı üçün bütün dövrlərdə həyata keçirilməlidir".

***Heydər Əliyev adına Bakı neft emalı zavodunda ümummilli liderimiz***
***Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimində çıxışından***
***(5 may 2004)***

***

"Sadə vətəndaşlar neftdən gələn gəlirləri hiss etməlidirlər. Yaşından, mənşəyindən asılı olmayaraq, ölkənin hər bir vətəndaşı gündəlik həyatında hiss etməlidir ki, neft gəlirlərində onun da payı var".

***Avropa Komissiyasında çıxışından***
***(18 may 2004)***

***

"Sosial məsələlərin həllində mühüm addımlar atılır, böyük proqramlar həyata keçirilir. Ən çətin vəziyyətdə yaşayan, sosial cəhətdən ən az müdafiə olunan qaçqınlar, köçkünlər üçün nəzərdə tutulmuş yeni layihələr həyata keçirilir. Bu proqram davam etdiriləcək və mən dediyim kimi, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır".

***28 may Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2004)***

***

"...prioritet məsələ - Azərbaycanda işsizliyin aradan qaldırılması siyasəti öz nəticələrini tapır. Seçkilərdən keçən 7 ay ərzində 30 min iş yeri açılıbdır. Bu proses davam edir."

***Mingəçevirdə məcburi köçkünlər üçün salınmış***
***qəsəbənin açılış mərasimində nitqindən***
***(8 iyun 2004)***

***

"İşləyən insana, fəhləyə diqqət, qayğı göstərilməli, onun iş şəraiti yüksək səviyyədə qurulmalıdır, standartlara cavab verməlidir".

***"AZBENTONİT" MMC-nin açılışı mərasimində nitqindən***
***(14 iyul 2004)***

***

“Biz ölkəmizi bazar iqtisadiyyatı əsasında inkişaf etdiririk və buna baxmayaraq, əgər büdcəyə nəzər salsanız, görərsiniz ki, büdcənin tam əksəriyyəti sosial məsələlərin həllinə yönəlmişdir. Bu yaxınlarda minimum əmək haqqının qaldırılması, büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqlarının artırılması məhz bu məqsədi daşıyır. Azərbaycan xalqının rifah halının qaldırılması, insanlar, vətəndaşlar üçün daha da yaxşı şəraitin yaradılması - biz bu siyasətə sadiqik.”

***Quba Olimpiya İdman Kompleksində kredit yarmarkasında nitqindən***
***(20 iyul 2004)***

***

“...Azərbaycanda son müddət ərzində digər sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Maaşlar və pensiyalar artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.”

***Heydər Əliyev adına Sarayda “Əsrin Müqaviləsi”nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(20 sentyabr 2004)***

***

"...biz əhalinin gündəlik həyatının yaxşılaşdırılmasına da böyük diqqət yetiririk. Çünki insanlar ümumi daxili məhsul üzrə göstəriciləri öz gündəlik həyatlarında hiss etməlidirlər. Biz çalışırıq ki, insanlarımıza daha yaxşı həyat bəxş edək, onların gündəlik problemlərini həll edək, qayğılarını azaldaq".

***Londonda "Azərbaycanda ticarət və sərmayə" mövzusunda konfransda nitqindən***
***(14 dekabr 2004)***

***

"...regionların inkişafı proqramının, sosial-iqtisadi inkişaf proqramının məqsədi də məhz budur: *insanlarımızın* həyat səviyyəsini yaxşılaşdırmaq, yeni iş yerləri açmaq, sosial məsələləri həll etmək, xalqımızın rahat yaşaması üçün şərait yaratmaq.

Əsas məqsəd ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı artırmaq, Azərbaycanı hərtərəfli inkişaf etdirmək, iqtisadiyyatımızı şaxələndirmək, insanların həyat səviyyəsini yaxşılaşdırmaqdır. Biz bunu bəyan etmişik, biz bunu edirik və əminəm ki, bundan sonra da qarşımızda duran bütün məsələləri uğurla icra edəcəyik".

***Siyəzən rayon Mərkəzi Klinik Xəstəxanasının açılışında nitqindən***
***(24 dekabr 2004)***

***

“Sosial məsələlərə böyük diqqət göstərilir. Bu il ərzində əmək haqları, pensiyalar, təqaüdlər, digər sosial ödəmələr, onların həcmi dəfələrlə artırılıbdır. Bu istiqamətdə işlər davam etdiriləcəkdir. Minimum əmək haqqının artırılması istiqamətində böyük işlər görülübdür. Bu yaxınlarda imzaladığım Sərəncama əsasən, 2005-ci ildən minimum əmək haqqı növbəti dəfə 25 faiz artacaqdır. Bu, bizim siyasətimizin prioritet məsələsidir.”

***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl Bayramı münasibətilə xalqa müraciəti***
***(31 dekabr 2004)***

***

"Gənclərlə bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur, mən özüm şəxsən daim gənclərlə ünsiyyətdə olmuşam, indi də əlaqə saxlayıram. Azərbaycan gəncləri ölkəmizdə gedən prosesləri çox gözəl bilirlər və ümumiyyətlə, dünyada gedən prosesləri çox gözəl bilirlər.

Sosial müdafiə imkanları yüksələcəkdir. Ən çətin vəziyyətdə yaşayan qaçqınlarımız, köçkünlərimizdir, onların da həyat səviyyəsi yaxşılaşdırılacaqdır. Bilirsiniz ki, onlar üçün yeni infrastruktur yaradılır, yeni şəhərciklər salınır, məktəblər, xəstəxanalar tikilir".

***Yeni Azərbaycan Partiyasının III Qurultayında nitqindən***
***(26 mart 2005)***

***

"Mənim məqsədim budur ki, ölkədə kasıb, çətin şəraitdə yaşayan adam olmasın. İnsanları narahat edən problemlər aradan qaldırılsın. Yerlərdə insanlara yerli icra orqanları tərəfindən diqqət yüksək səviyyədə olsun. Bizim cəmiyyətimizi sarsıdan rüşvətxorluğa, korrupsiyaya son qoyulsun. Azad cəmiyyət yaransın. Budur mənim məqsədim, budur mənim siyasətim. Bu siyasət xalq tərəfindən bəyənilib və bundan sonra da onu xalqın iradəsi ilə davam etdirəcəyik".

***Qubada Heydər Əliyev parkının açılış mərasimində nitqindən***
***(25 iyul 2005)***

***

"...Bız xalq üçün işləyirik, xalq üçün yaşayırıq. Sosial məsələlərə diqqət və insanlara diqqət, qayğı mütləq olmalıdır. Bizim insanlarımız yaxşı şəraitdə yaşamalıdır, onların yaxşı iş şəraiti olmalıdır. Uşaqlar gözəl məktəblərdə oxumalıdırlar. Bir sözlə, Azərbaycan yeniləşməlidir. Azərbaycanda infrastruktur yeniləşməlidir".

***H.Əliyev adına Liseydə "Bilik Günü"nə həsr olunmuş mərasimdə nitqindən***
***(15 sentyabr 2005)***

***

“Azərbaycanda sosial proqramların icrası çox uğurla gedir. Qısa müddət ərzində insanların həyat səviyyəsinin yaxşılaşması üçün lazımi tədbirlər görülübdür. Əmək haqları, pensiyalar artırılır və gələn il də artırılacaqdır.”

***Əli Bayramlı şəhərinə səfəri çərçivəsində Müalicə-***
***Diaqnostika Mərkəzinin açılışı mərasimində nitqindən***
***(24 dekabr 2007)***

***

“2007-ci ildə sosial məsələlərin həllinə də böyük diqqət göstərilmişdir. Maaşlar və pensiyalar artırılmışdır və bu meyil davam etdirilir.

Bununla yanaşı, ünvanlı sosial yadım proqramı uğurla icra edilir. 78 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə dövlət tərəfindən verilən yardım təxminən 100 dollar səviyyəsindədir. Beləliklə, biz öz iqtisadi imkanlarımızı səfərbər edib, ehtiyac içində yaşayan vətəndaşlarımız üçün əlavə imkanlar yaradırıq, onları dəstəkləyirik və bu proses bundan sonra da davam etdiriləcəkdir. Əlbəttə, biz istərdik ki, Azərbaycanda bütövlükdə yoxsul təbəqə olmasın və bu istiqamətdə işlər görülür.”

***Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən (11 yanvar 2008)***

***

“2003-cü ilin payızında prezident seçkiləri ərəfəsində söz vermişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. İndi deyə bilərəm ki, biz bu məqsədə 4 il ərzində nail olduq. Sonuncu çadır şəhərcikləri ləğv edilibdir. Onların əvəzində yeni, gözəl qəsəbələr tikilibdir, məktəblər, tibb məntəqələri, uşaq bağçaları, bütün infrastruktur var, elektrik xətləri çəkilibdir. İndi Ağdam rayonuna təbii qazın verilməsi məsələsi də həll olunur. Bu gün Ağcabədiyə uzun fasilədən sonra, ilk dəfə qazın verilməsi bərpa ediləcəkdir. Sonra o xətdən Ağdam rayonuna yeni xətt çəkiləcək və bu rayon təbii qazla da təmin olunacaqdır.

Bir sözlə, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması Azərbaycan dövlətinin əsas prioritet məsələsidir və bu məqsədlərə böyük vəsait ayırırıq. Bu məqsədlər üçün biz müvafiq proqramlar qəbul etmişik, 16 fərman və sərəncam imzalanmışdır. Bütün bu fərman və sərəncamlar əməli-praktik işlərin görülməsi üçün əsasdır. Qəbul edilmiş hər bir qərar ona gətirib çıxaracaq ki, insanların həyat səviyyəsi yaxşılaşacaqdır.”

***Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin açılış mərasimində nitqindən (17 yanvar 2008)***

***

“İndi biz sosial məsələlərin həllinə - təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları məsələlərinə çox böyük diqqət göstəririk. Sirr deyil ki, bizim iqtisadi inkişafımızın böyük hissəsi neft-qaz sektoru ilə bağlıdır. Bu sektorda yaranan əlverişli vəziyyət iqtisadiyyatın bütün başqa sahələrinə öz müsbət təsirini göstərir. Biz qısa müddət ərzində regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə nail olmuşuq. Son beş ilə yaxın müddətdə 650 mindən çox iş yeri açılmışdır. İşsizlik, demək olar ki, aradan qaldırılıb, yoxsulluğun səviyyəsi aşağı düşüb, iqtisadi inkişaf göz qabağındadır. Biz dörd ildə iqtisadiyyatımızı iki dəfə artıra bilmişik.”

***XV Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransında nitqindən (3 iyun 2008)***

***

“Sosial siyasət hər bir ölkənin ümumi inkişaf potensialını göstərir. O ölkələr ki, inkişaf edib, güclü iqtisadi potensiala malikdir, təbii ki, orada sosial məsələlərə də diqqət göstərilir. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sosial məsələlər tezliklə öz həllini tapsın və Naxçıvanın timsalında biz bunu görürük. Burada həm sosial sahəyə diqqət göstərilir, həm də iqtisadi inkişaf çox sürətlə gedir, - siz bunu yaxşı bilirsiniz, - yeni müəssisələr, fabriklər, zavodlar açılır, quruculuq işləri aparılır. Naxçıvanın büdcəsi ildən-ilə artır və bu imkan verir ki, muxtar respublikada bütün quruculuq-abadlıq işləri yüksək keyfiyyətlə aparılsın.”

***Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Culfa rayon mərkəzi xəstəxanasının açılış mərasimində nitqindən (3 iyun 2008)***

***

“Azərbaycanda uğurla həyata keçirilən sosial islahatlar öz müsbət nəticələrini verir. İldən-ilə Azərbaycan xalqı daha da yaxşı yaşayır. Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Son dörd il ərzində 49 faizdən 16 faizə düşən yoxsulluğun səviyyəsi onu göstərir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan

xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir."

***Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə|***
***həsr olunmuş təntənəli yığıncağında nitqindən***
***(19 iyun 2008)***

***

"Sosial müdafiə sahəsində əlavə tədbirlər görülür. Ünvanlı sosial yardım alan insanların sayı artır. Artıq Azərbaycanda 100 min ailə - 467 min insan ünvanlı sosial yardım alır. Bu onu göstərir ki, bizim çox güclü sosialyönümlü siyasətimiz var və biz artan iqtisadi imkanlardan aztəminatlı təbəqənin yaşayışının yaxşılaşdırılması üçün istifadə edirik. Bazar iqtisadiyyatı prinsipləri bəzi hallarda sosial ədalət normalarını pozur. Bu, bazar iqtisadiyyatının mənfi tərəfidir. Ancaq biz Azərbaycanda güclü sosial siyasət aparmaqla çalışırıq və çalışmalıyıq ki, aztəminatlı ailələr dövlət tərəfindən dəstəklənsin və onlara verilən müavinət ildən-ilə artmalıdır və artacaqdır. İnflyasiyanın yüksək səviyyədə olmasını nəzərə alaraq, biz minimum əmək haqqını və minimum pensiyanın məbləğini yenidən artırmalıyıq. Artıq bu, gözəl ənənəyə çevrilibdir. Azərbaycanda ildə iki dəfə minimum pensiya və minimum əmək haqqı artırılır. Hesab edirəm, gələn aydan biz bunları yenə də artırmalıyıq ki, insanlar daha da yaxşı yaşasınlar və öz tələbatlarını daha da böyük həcmdə təmin edə bilsinlər."

***Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi***
***inkişafının yekunlarına həsr olunmuş geniş iclasında giriş nitqindən***
***(5 avqust 2008)***

***

"Məcburi köçkünlərin problemlərinin həlli üçün bu beş il ərzində görülən işlər göz qabağındadır. Mən məcburi köçkünlərlə çoxsaylı görüşlər zamanı onların problemlərinin həlli üçün səylərimi göstərmişəm, onlara söz vermişdim. Söz vermişdim ki, bir dənə də çadır şəhərciyi qalmayacaq və bu gün Azərbaycanda bir dənə də çadır şəhərciyi yoxdur. 2004-ci ildə qəbul edilmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması Dövlət proqramının uğurlu icrası bizim niyyətimizi, bizim siyasətimizi göstərir. 2007-ci ildə proqrama əlavələr edildi, əlavə vəsait nəzərdə tutulur. Son beş il ərzində 12 çadır şəhərciyi ləğv edilmişdir. Onların əvəzinə müasir binalar, müasir qəsəbələr salınmışdır. 36 yeni qəsəbə salınmış, onlarda 47 min nəfər məcburi köçkün məskunlaşdırılmışdır. Bu qəsəbələrdə 34 məktəb, 24 tibb məntəqəsi tikilib və insanların yaşaması üçün lazım olan digər tədbirlər görülübdür. Son beş il ərzində bu məqsədlər üçün 1 milyard dollar xərclənib, proqrama əlavələr hesabına əlavə minimum 500 milyon dollar xərclənəcəkdir. Bu vəsait də Azərbaycan Dövlət Neft Fondunun hesabına, Azərbaycan dövlətinin hesabına və yenə də deyirəm, Heydər Əliyevin neft siyasətinin hesabına yaradılır. Əgər bu olmasaydı, əgər Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşməsəydi Neft Fondunda pul olmazdı, heç Neft Fondu da olmazdı."

"Ünvanlı sosial yardım artıq 600 min nəfərə verilir. Azərbaycanda 600 min insan hər ay dövlətdən pul alır. Orta hesabla, hər ailəyə 122 dollar pul verilir. Yəni bu, dövlətin o insanlara qayğısıdır."

"Son beş il ərzində Azərbaycanda 741 min yeni iş yerləri açılmışdır ki, bunun da 531 mini daimi iş yeridir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində verilən vədlərin biri də ondan ibarət idi ki, Azərbaycanda 2003-2008-ci illərdə 600 min yeni iş yerləri açılacaqdır. O vaxt bəziləri buna şübhə ilə yanaşırdı. Ancaq həyat hər şeyi yerinə qoydu. Azərbaycanda nəinki 600 min, 741 min yeni iş yeri açılıbdır və bu proses davam edir."

***Nazirlər Kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi***
***inkişafın yekunlarına həsr olunmuş geniş iclasında yekun nitqindən***
***(13 oktyabr 2008)***

***

“İlin birinci yarısında sosial məsələlərin həlli də uğurla davam edir, bütün sosial proqramlar həyata keçirilir. Məktəb, xəstəxana tikintisi, digər sosial proqramlar icra edilir. Ünvanlı sosial yardımı alan insanların sayı 800 minə çatmışdır və orta hesabla hər bir ailəyə yüz manat yardım göstərilmişdir. Bu da çox böyük məbləğdir və çətin vəziyyətdə yaşayan soydaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan dövləti tərəfindən görülən konkret tədbirdir.”

***Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında giriş nitqindən (22 iyul 2009)***

***

“Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlindən gələni edir. Mənə bu yaxınlarda verilən məlumata görə, bu məqsədlər üçün, məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün Azərbaycan dövləti 2 milyard dollar vəsait xərcləmişdir. Bu vəsait hesabına 12 çadır şəhərciyi ləğv edilib, 81 min məcburi köçkün yeni evlərə köçürülüb, 123 məktəb tikilib, yollar, elektrik xətləri çəkilib, xəstəxanalar inşa edilibdir.

2004-cü ildə xüsusi Dövlət Proqramı qəbul edilmişdir. 2007-ci ildə proqrama əlavələr edilmişdir. Biz ən ağır şəraitdə yaşayan soydaşlarımızın problemlərini həll etdik. Azərbaycanda artıq çadır şəhərcikləri yoxdur. Biz indiki mərhələdə artıq ictimai yerlərdə, hərbi hissələrin ərazilərində, məktəblərdə, yataqxanalarda yaşayan soydaşlarımızın həyatını yüngülləşdirəcəyik. Bu məqsədlə Azərbaycan dövlətinin kifayət qədər imkanları vardır. Bizim iqtisadiyyatımız artır.”

***Bakıda məcburi köçkün ailələri üçün tikilmiş yaşayış binaları kompleksinin istifadəyə verilməsi mərasimində çıxışından (17 noyabr 2009)***

***

“İş yerləri ilə bağlı, qeyd etdiyim kimi, demək olar ki, əsas məsələlər öz həllini tapdı. Halbuki hələ ki, işsizlik vardır və biz işsizliklə bundan sonra da mübarizə aparacağıq. Amma bu böyük sosial bəlanın əsas hissəsi həll olundu. Bunu göstərən həm son 6 il ərzində yaradılmış 840 min iş yeri, eyni zamanda, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayının azaldılmasıdır. Altı il bundan əvvəl Azərbaycan vətəndaşlarının təxminən 50 faizə yaxını yoxsulluq səviyyəsində yaşayırdı, bu gün bu göstərici 11 faizdir. Əgər 2008-ci ilin yekunları ilə müqayisə etsək, görərik ki, keçən il ərzində yoxsulluq 13,2 faizdən 11 faizə düşmüşdür. Bu da çox gözəl göstəricidir.”

“Azərbaycanda demoqrafik vəziyyət də çox yaxşıdır, çox gözəldir. Bu yaxınlarda ölkəmiz üçün çox vacib və tarixi hadisə baş vermişdir - doqquz milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu, böyük nailiyyətdir, böyük göstəricidir. Ümumiyyətlə, keçən il Azərbaycanda 152 min uşaq dünyaya gəlmişdir. Əvvəlki illərlə müqayisədə bu, böyük artımdır. Biz dinamikadan görürük ki, ildən-ilə Azərbaycanda doğulan uşaqların sayı artır. Bu, əlbəttə ki, ölkə əhalisinin sayını artırır, bizi gücləndirir və eyni zamanda, Azərbaycanda görülən işlərin nəticəsidir. Vəziyyət yaxşılaşır, insanlar daha da yaxşı yaşamağa başlayırlar. Beləliklə, demoqrafik artım bunun bilavasitə göstəricisidir.”

***Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqindən (18 yanvar 2010)***

***

“Bu ilin doqquz ayında sosial sahə ilə bağlı bütün məsələlər həllini tapıb. Sosial infrastrukturun yaradılmasına böyük investisiyalar qoyulubdur. Bu il 23 səhiyyə müəssisəsi təmir olunubdur, 59 məktəb və əlavə korpus, 3

regional olimpiya idman mərkəzi tikilibdir və "Kür" Olimpiya Tədris-İdman Mərkəzi bu yaxınlarda istifadəyə verilibdir. Bu proses davam etdirilir və gələn ilin büdcəsində əlbəttə ki, sosial infrastrukturun möhkəmlənməsi üçün əlavə tədbirlər görüləcəkdir."

***Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqindən (20 oktyabr 2010)***

***

"Sosial sahədə qarşımızda duran vəzifələr əhalinin rifah halını yaxşılaşdırmaq, aztəminatlı təbəqənin sosial müdafiəsini gücləndirmək, yoxsulluğu bütövlükdə Azərbaycanda aradan qaldırmaqdır. Əgər bir neçə il bundan əvvəl bu cür fikirlər müəyyən inamsızlıqla üzləşirdisə, bu gün bu sahədə görülmüş işlər, əldə edilmiş uğurlar deməyə tam əsas verir ki, biz bu vəzifəyə nail olacağıq. Azərbaycanda yoxsullar olmamalıdır. Bu sosial bəla olmamalıdır. Buna nail olmaq üçün konkret proqramlarımız, düşünülmüş siyasət vardır. Son 7 il ərzində yoxsulluq səviyyəsinin 4 dəfə aşağı düşməsi görülən işlərin nəticələrinin təzahürüdür."

***Azərbaycan Respublikasının dördüncü çağırış Milli Məclisinin ilk iclasında nitqindən (29 noyabr 2010)***

***

"2010-cu ildə bütün sosial proqramlar icra edildi. Qeyd etdiyim kimi, minimum əməkhaqqı və pensiyanın baza hissəsi 75 manatdan 85 manata qaldırıldı. Ünvanlı sosial yardım proqramı icra edilir, bu proqram çərçivəsində 550 min nəfər dövlətdən yardım alır və biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Çünki hələ də ehtiyac içində yaşayanlar var. Baxmayaraq ki, yoxsulluğun səviyyəsi aşağı düşür, ancaq biz elə etməliyik ki, çətinlik çəkənlər üçün də dövlət öz qayğısını əsirgəməsin.

Sosial infrastrukturun yaradılmasında böyük işlər görülmüşdür. 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb tikilmiş, təmir edilmişdir. 5 olimpiya mərkəzi tikilmişdir, mədəniyyət ocaqlarının tikilməsi və təmirinə vəsait ayrılır. Bir sözlə, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkənin inkişafı üçün vacib olan sosial sahə həmişə olduğu kimi diqqət mərkəzindədir."

***Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən (14 yanvar 2011)***

***

"Məcburi köçkünlərin yerləşdirilməsi prosesi gedir. Bu il bu məqsədlər üçün Neft Fondundan rekord məbləğ – 300 milyon manat nəzərdə tutulmuşdur. Bu vəsaitlə yeni qəsəbələr salınır. Mən bu qəsəbələrin açılışlarında iştirak edirəm və görürəm ki, doğrudan da biz insanlara sevinc bəxş edirik, onları ağır vəziyyətdən çıxarıb normal şəraitlə təmin edirik. Hesab edirəm ki, biz gələn il də ən azı bu səviyyədə vəsait ayırmalıyıq. 300 milyon manat böyük məbləğdir və gələn il də köçkünlərin yerləşdirilməsi, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük tədbirlər görüləcəkdir. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlər vardır. Əlbəttə, "çadır şəhərciyi" anlayışı artıq 5 ildir ki, silinibdir. Ancaq uşaq bağçalarında, hərbi hissələrin ərazilərində, yataqxanalarda kifayət qədər çox köçkün yaşayır. Biz həm onların vəziyyətini yüngülləşdirəcəyik, eyni zamanda, uşaq bağçaları ilə də bağlı bizim böyük planlarımız vardır."

***Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında yekun nitqindən (10 oktyabr 2012)***

***

“Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan artıq qaçqın və məcburi köçkün yaranmış, onlar çox acınacaqlı şəraitdə, çadır şəhərciklərində, yaşayış üçün münasib olmayan digər yerlərdə məskunlaşmışlar. 2004-cü ildən biz məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı ciddi tədbirlər görməyə başladıq. Ötən müddət ərzində bütün çadır şəhərcikləri ləğv olunmuş, 77 müasir qəsəbə salınmış, yüz minlərlə məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Ötən il biz 20 min məcburi köçkünü müasir mənzillərə, evlərə köçürdük və bu il daha 20 min nəfərin mənzil problemini həll edəcəyik.”

***Böyük Britaniyanın nüfuzlu “The Buisness Year” jurnalına müsahibəsindən***
***(4 aprel 2013)***

***

“...hər bir ölkənin inkişafı ilk növbədə insanların həyat tərzində özünü göstərməlidir və insanların yaşayış səviyyəsi qalxdıqca, yeni imkanlar yarandıqca, əlbəttə ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycanın bu sahədə təcrübəsi vardır.”

“Azərbaycan siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı dayanır. Ciddi və məqsədyönlü sosial siyasət bizə imkan verdi ki, ölkə inkişaf etsin və insanların rifah halı yaxşılaşsın.”

***Üçüncü Beynəlxalq Humanitar Forumda nitqindən***
***(31 oktyabr 2013)***

***

“Regionların sosial infrastrukturu növbəti beş il ərzində əlbəttə ki, yeniləşəcəkdir. Məktəb, xəstəxana, mədəniyyət ocaqlarının tikintisi davam etdiriləcək, məcburi köçkünlərin problemləri öz həllini tapacaqdır. Keçən il 28 min köçkün yeni evlərə, mənzillərə köçürülmüşdür. Bu il də yəqin ki, buna yaxın bir rəqəm olacaqdır. Yəni, bu məsələ daim diqqət mərkəzindədir.”

***Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransda yekun nitqindən***
***(5 fevral 2014)***

***

“Birinci rübdə orta əməkhaqqı təxminən 7 faiz artmışdır. Bu gün Azərbaycanda orta əməkhaqqı 430 manat, yəni 550 dollar səviyyəsindədir. Əməkhaqqı ildən-ilə artır və artacaqdır. Gələcəkdə görüləcək işlər, iqtisadi inkişaf, neft-qaz sektorunun inkişafı sayəsində, eyni zamanda, maaşların və pensiyaların qaldırılması nəticəsində orta əməkhaqqı və orta pensiya daha da artmalıdır, artacaqdır.”

“Bütövlükdə birinci rübdə sosial infrastrukturun yaradılması istiqamətində də önəmli addımlar atılıb. Bu, artıq daimi bir prosesdir. Hələ ki, bu sahədə görüləsi işlər çoxdur. Baxmayaraq ki, 2 mindən artıq məktəb, 500-dən çox xəstəxana tikilib, yenə də buna ehtiyac vardır. Çalışmalıyıq ki, 2018-ci ilin sonuna qədər bu sahədə də bütün təmir-bərpa və tikinti işlərini yekunlaşdıraq ki, sosial infrastruktur tamamilə yenilənsin.”

***Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən***
***(13 aprel 2014)***

***

"...hökumətimiz üçün sosial məsələlər hər zaman prioritet xarakter daşıyıb. Yaşayış standartlarının yaxşılaşdırılması, iş yerlərinin açılması, işsizliyin azaldılması, bütün bunlar göstərir ki, bunu etmək olar. Birinci olaraq, bizə sadəcə sabitlik lazımdır. Çünki sabitlik olmadan bütün bunlar mümkünsüzdür. İkincisi, əhalimizin əksər hissəsi tərəfindən dəstəklənən olduqca aydın daxili siyasətimiz vardır və biz nəticələrə nail olmalıyıq, verdiyimiz vədləri yerinə yetirməliyik, üzərimizə götürdüyümüz vəzifələri icra etməliyik."

***II Qlobal Açıq Cəmiyyətlər Forumunun rəsmi açılışında nitqindən***
***(28 aprel 2014)***

***

"Sürətli inkişaf həm də vətəndaşların sosial rifahının yüksəlməsinə səbəb olmuşdur. Son 10 ildə əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır. Hesab edirəm ki, yoxsulluğun səviyyəsinin 49 faizdən 5,3 faizə düşməsi, habelə işsizliyin iki dəfə azalaraq cəmi 5 faiz təşkil etməsi bizim ölkənin mühüm uğuru hesab oluna bilər. 10 ildə respublikada genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, şəhər, qəsəbə və kəndlərimiz müasirləşmiş, bütün sahələrdə ən müasir standartlar və qabaqcıl texnologiyalar tətbiq olunmuşdur."

***"The Business Year" nəşrinə müsahibəsindən***
***(14 may 2014)***

***

"Güclü iqtisadiyyat, düşünülmüş siyasət imkan verir ki, sosial sahəyə də diqqət göstərilsin. Bu sahə daim prioritetdir, bu il də prioritet olaraq qalacaq. Sosial obyektlərin inşası uğurla təmin edilmişdir, 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb tikilib istifadəyə verilmişdir. Əməkhaqqı, pensiya artmışdır. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 600 dollara yaxınlaşır. Biz çalışacağıq ki, bu templər ildən-ilə daha sürətlə təmin edilsin. 400 min insana ünvanlı sosial yardım verilir, 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Dövlət tərəfindən hər ailəyə orta hesabla 155 manat, yəni, 200 dollara yaxın vəsait verilir."

***Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş nitqindən***
***(10 yanvar 2015)***

***

"Sosial sahə insanların rifah halını, rahat yaşamasını təmin edən sahədir. Ona görə Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlayır. Təbii ki, bizim gəlirlərimiz azalıb. Çünki neftin satışından əldə edilən gəlirlər təbii olaraq azalır. Ancaq əvvəlki illərdə əldə edilmiş maliyyə resursları, eyni zamanda, düşünülmüş siyasət, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi bizə imkan verir ki, hətta azalan gəlirlərlə bütün sosial öhdəlikləri yerinə yetirək və ölkə üçün vacib olan infrastruktur layihələrini icra edək."

***Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş nitqindən***
***(10 aprel 2015)***

***

"Sırf Azərbaycan brendi olan "ASAN xidmət" yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərib. Müraciətlərin ümumi sayı 17 milyona çatıb. "ASAN xidmət"in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir."

***BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı nitqdən***
***(19 sentyabr 2017)***

***

“Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verdi. “ASAN xidmət” mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və “ASAN xidmət” mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır.”

***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı giriş nitqindən (29 yanvar 2018)***

***

“Hazırda Azərbaycan yoxsulluğun və işsizliyin səviyyəsinin az olmasına görə dünyada ən öncül ölkələr sırasındadır. Biz təhsilə, səhiyyə sahəsinə böyük yatırımlar etmişik. Son 15 il ərzində 3100-dən artıq məktəb, 600-dən çox xəstəxana tikilmişdir.”

***VI Qlobal Bakı Forumunun açılışında nitqindən (16 mart 2018)***

***

“Son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib. 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir.

Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o səviyyədə artıbdır. Mən bunu bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimizdə biz bu amili daim diqqətdə saxlayacağıq. Çünki bizdə mövcud olan müsbət demoqrafik dinamika tələb edir ki, iş yerlərinin yaradılması prosesi daim getsin.”

***Andiçmə mərasimində nitqindən (18 aprel 2018)***

***

“Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq. Amma əsas vəzifə ondan ibarətdir ki, bu yardım ədalətli bölünsün. Doğrudan da bu yardıma ehtiyacı olan bu yardımı alsın. İmkanlı adamlar, yaxud da ki, sosial yardıma ehtiyacı olmayanlar bu yardımdan məhrum edilməlidir.”

***Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqindən (8 iyul 2018)***

***

“Sosial sahədə biz “ASAN xidmət”in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər.”

***Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqindən (9 oktyabr 2018)***

***

“Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub...

Ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılıbdır. Son 15 il ərzində 650-dən çox tibb müəssisəsi yenidən qurulub, əsaslı təmir edilib və tikilib. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçir. Yəni, bunlar humanitar sahənin çox önəmli hissələridir və bundan sonra da bu istiqamətlər üzrə ardıcıl siyasət aparılacaq.”

***VI Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində nitqindən (25 oktyabr 2018)***

***

“Son 15 ildə 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 olimpiya mərkəzi yaradılmışdır. Bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlüdür və əldə edilmiş gəlirləri biz, ilk növbədə, sosial sahələrə yönəldirik.”

***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda giriş nitqindən (29 yanvar 2019)***

***

“Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir.”

***DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılışında nitqindən (9 may 2019)***

***

“İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.”

***28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən (27 may 2019)***

***

“2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.”

***Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə nitqindən***
***(25 oktyabr 2019)***

***

“Bu il dövlət tərəfindən ən böyük sosial paket tətbiq olunub və bu, 4,2 milyon insanı əhatə edib. Bu, analoqu olmayan sosial təşəbbüsdür ki, həm maaşlar, həm pensiyalar, müavinətlər artırılıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb. Biz bütün bu işləri vətəndaşların rifah halının yaxşılaşması üçün edirik.”

“DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də “ASAN xidmət” mərkəzləri bizim intellektual məhsulumuzdur.”

***2 saylı DOST mərkəzinin açılışında nitqindən***
***(24 dekabr 2019)***

***

“Artıq “ASAN xidmət” “ASAN” adı altında başqa ölkələrdə də fəaliyyət göstərməyə başlayıb. Bu, bizim şərtimiz idi, çünki bu, bizim brendimiz, bizim intellektual məhsulumuzdur. Əlbəttə, biz öz təcrübəmizi istənilən ölkə ilə bölüşməyə hazırıq və bunu edirik. Əlbəttə, sevinirik ki, digər ölkələr də bizim təcrübəmizdən istifadə edirlər.”

***Tovuzda “ASAN Həyat” kompleksinin açılışında çıxışından***
***(4 mart 2020)***

***

“Azərbaycan sosial dövlətdir və bizim atdığımız bütün addımlar bunu təsdiqləyir. Təkcə keçən il mənim təşəbbüsümlə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə edir. Minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması, əlbəttə ki, böyük iqtisadi mənbə tələb edir və bunu da biz yaradırıq. Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur.”

***Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqindən***
***(10 mart 2020)***

***

“Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb.”

***“Qobu Park-3” yaşayış kompleksinin açılışında nitqindən
(28 may 2020)***

***

“Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır.”

***Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında
müalicə olunan yaralı hərbçilərlə görüşdə nitqindən
(30 sentyabr 2020)***

***

“Mənim mövqeyim həmişə belə olub ki, biz 1980-ci illərin sonunda münaqişə başlayana qədər mövcud olmuş ab-havanı qaytarmalıyıq. Düşünürəm ki, bu, mümkündür. Erməni cəlladların Xocalıda törətdiklərindən, dinc əhalini məhv etmələrindən, bizim tarixi, dini abidələri dağıtmalarından, bu ərazilərdə azərbaycanlıların tarixi irsini yerlə-yeksan edəndən sonra bu, asan olmayacaq. Lakin hesab edirəm ki, biz buna çalışmalıyıq.”

***Rusiyanın “Pervıy Kanal” televiziyasına müsahibəsindən
(6 oktyabr 2020)***

***

“Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Biz bunu bilirdik. Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. Ona görə də biz bu əraziləri bərpa edəcəyik.”

***Rusiyanın RBK televiziya kanalına müsahibsindən
(10 oktyabr 2020)***

***

“Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yəni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər.”

***Yerli televiziya kanallarına müsahibəsindən
(12 yanvar 2022)***

***

“Şəhid ailələri, müharibə əlilləri üçün də genişmiqyaslı proqram icra edilir. ... Mən bütövlükdə deyirəm. Mən bilmirəm, bu sahədə Azərbaycan qədər bu işləri görən ikinci ölkə var, yoxsa yox. Amma yenə də müqayisə üçün yox, sadəcə olaraq, bizim siyasətimiz bundan ibarətdir. Bax, bu günə qədər 10 mindən çox şəhid ailəsi və müharibə əlili evlərlə, mənzillərlə təmin edilib. Bu, çox böyük rəqəmdir. Yeddi mindən çox minik avtomaşını, mən bilirəm

ki, heç bir başqa ölkədə bu proqram yoxdur. Təkcə keçən il 1600 Birinci və İkinci Qarabağ müharibələri əlili və şəhid ailələrinə mənzillər verilib - 850 Birinci, 750 İkinci Qarabağ müharibələri iştirakçılarına. ... Əlini, qolunu, ayağını itirmiş hərbçilərə protezlər quraşdırılır. Mənə verilən son məlumata görə, haradasa, protezə ehtiyacı olan 200-ə qədər Vətən müharibəsi iştirakçısı var ki, onların 95 faizi artıq protezlərlə təmin edilib. Bu protezlər son texnologiyalı protezlərdir və normal həyata qayıtmaq üçün bütün imkanlar var."

***Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda çıxışından (2 fevral 2022)***

***

"Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək".

"Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

"Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək".

***Andiçmə mərasimində nitqindən (14 fevral 2024)***